# TƏMSİLLƏR



Əbülfəz RƏCƏBLİ

## KƏSƏK DAŞA AĞLAYIR

Yolun qırağında çılpaq bir kəsək
Zar-zar ağlayırdı, körpə uşaqtək.
Yoldan ötən ağac ona yan aldı,
Kəsəyin halına qəlbi daraldı.
Ağlayan kəsəyə o nəzər saldı,
Dərdini öyrəndi xəbər də aldı.
Dedi:-qardaş niyə qan-yaş tökürsən,
Saçını yolursan, sinə sökürsən?
Nə fəlakət gəlib sənin başına,
Sən rəvac veribsən gözün yaşına?
Köksünə ötürdü kəsək dərindən,
Ağaca danışdı öz kədərindən.
Dedi:- payız gəlib alıb qapını,
Yağış adamların kəsər tabını.
Göylər kədərlənir şəxsi gözünü,
Sular bürüyəcək bu yer üzünü.
Mənim qonşum o daş tamam üryandır,
Əynində başında yox bir geyəcək.
Halına yanıram, ürəyim qandır
Ona ağlayıram əgər gəlsə qış,
Göylərdən torpağa gələndə yağış
Yağışın altında o əriyəcək.
Bakı, 19.04.2000

## XORUZUN QUYRUĞU

Xoruz hində özünü
Hamıdan uca tutdu,
Hində yaşayanların
Varlığını unutdu.
Xoruz öz quyruğuna
Vurulmuşdu dünyada.
Odur ki, bir kimsəni
Salmayırdı heç yada.
Hey deyirdi özünə,
Güc verirdi sözünə:
-Quyruğum nə gözəldir,
Həm cəvahir, həm ləldir.
Günəş ondan alıbdır
Tükənməyən işığı.
Ay ondan oğurlayıb
Bu hüsnü, yaraşığı.
Onu tək yaradıbdır
Ulu tanrı dünyada.
Tanrı məni seçibdir
Qismətim olub o da.
Hər lələyi rəng alıb
Göydə qövsi-quzeydən
Toyuğa tay deyiləm,
Yerə enmişəm göydən.
Bu yazıq hindəkilər
Görün miskindir necə!
Mənə tay ola bilməz,
Nə toyuq, nə də cücə.
Toyuğun quyruğu yox,
Cücə ətcəbaladır.
Ayağıma dolaşır
İkisi də bəladır.
Belə-belə öyündü
Quyruğuyla xoruz xan.
Gün dolandı, ay ötdü,
Gəlib çatdı bir zaman.
Xoruzu da kəsdilər,
Quyruğunu yoldular,
Toyuğu da kəsdilər,
Pərğusunu aldılar
Toyuğun tüklərindən
Pərğu balış tutdular.
Xoruzun quyruğunu
Zibilliyə atdılar.
Bakı, 20.11.2019.

## SÜRÜNƏN UÇA BİLMƏZ

Bir qartal səmalarda
Məğrur-məğrur süzürdü.
Bir ilan həsrət ilə
Onu yerdən süzürdü.
Çoxdandır ki, bir fikir
İlanı çox üzürdü:
-Görəsən göydə varmı
Ya qurbağa, ya siçan?
Ya da yeməyim üçün
Orda bir şey olarmı?
-deyə düşündü ilan.
Bir hündür daş taparaq,
Süründü ona sarı
Əzabsız, əziyyətsiz
Süründü lap yuxarı.
Uçmaq üçün tullandı,
Fəqət düşdü torpağa.
Əzildi qabırğası,
Özü döndü yumağa.
Fısıldayıb söylədi:
-yaman axmaqdır quşlar
Gözəl torpağı qoyub,
Uçmağa can atırlar.
Göylərdə axı nə var?
Göylərdə heç nə yoxdur.
Bir boşluqdur bu hava,
Boşluğa yetmək üçün
Dəyərmi, edim dava?!
İlan dedi bunları,
Dəliyinə süründü.
Torpağın altındakı
Qaranlığa büründü.
Atalar deyirlər ki,
Bir də düşün sal yada,
Sürünməkçün yaranan,
Uça bilməz dünyada.
Bakı, 11.02.2013

## SİÇANLARIN SEVİNCİ

Bu, bir hind əfsanəsi-
Qorxudan, ləzzət aldım.
Yamanca tutdu məni,
Nəsrdən nəzmə saldım.
Bir gün gecə yarısı
Siçanlar şəhərində,
Mərkəz meydanında,
Ucqar küçələrində,
Qoca, cavan siçanlar,
Ciyildəyən körpələr,
Tökülür küçələrə.
Hay-küylə dolur şəhər.
Sevinclə dolur şəhər.
Oxuyan kim, çalan kim,
Oynayan kim, gülən kim.
Görünməmiş bir şənlik,
Şəhərə olur hakim.
Dərin yuxuya dalmış,
Qoca, ahıl bir siçan
Bu hay-küydən diksinib,
Oyanır yuxusundan.
Dünya görmüş bu siçan
Yarı çılpaq, yarı lüt
Çıxaraq komasından
Siçanlara qoşulur.
Ona, buna yanaşıb,
Onlardan sorur siçan:
-Bu gün hansı bayramdır?
Hansı müqəddəs gündür?
Deyir, nə baş veribdir?
Bu nə toydur, düyündür?
Ona cavab olaraq,
Yer yerdən qışqırırlar:
Xəbərin yoxdur məgər?
Pişik keçib pələngin,
Pəncəsinə-deyirlər.
Pişik keçib-deyirlər-
Pələngin cəngəlinə.
Fərdi cavab verəcək,
İşinə, əməlinə.
Qəddar pişik keçibdir,
Pələngin pəncəsinə.
Daha hay verən olmaz,
Harayına, səsinə.
Dərindən ah çəkərək,
Qoca siçan inlədi.
Siçanlara üz tutub,
Ucadan belə dedi:
-Hələ tezdir bu şənlik,
Bu toy-düyün, bu büsat.
Hələ heç bilmək olmaz,
O yazıq fağır pələng
Çıxacaqmı pişiyin,
Pəncəsindən salamat.
Bizim həyatda çoxdur,
Belə siçan kimilər,
Onların gözlərində
Pişik olur şirü-nər.
Bakı, 24.10.2003.

## AĞCAQANAD

İnanın mənə:
Sözüm-səmimi.
Ağcaqanad da
İki cür olur,
Adamlar kimi.
Biri sakitcə,
Sovurur qanı,
Biri küy salıb
Yeyir insanı.
Bakı, 9.10.2003

